# HÖKUMƏTİN PROQRAMLARI

<"xml encoding="UTF-8?>

## HÖKUMƏTİN PROQRAMLARI

Hökumətin hədəfləri ilə tanış olduqdan sonra gərək qeyd olunan məqsədlərə çatmaq üçün hökumətin nəzərdə tutduğu proqramları araşdıraq ki, gözəl zühur dövranının fəaliyyət yolunu tanımaqdan əlavə, zühurdan əvvəlki dövrlər üçün münasib bir ülgü nəzərdə canlansın, aləmin böyük xilaskarının intizarında olanlar İmam Zaman (ə)-ın böyük hökumət üslubu və icra olunacaq proqramları ilə tanış olsunlar, özlərini və cəmiyyətlərini belə bir yolu qət etməyə .hazırlasınlar

İmam Məhdi (ə)-ın hökumət dövranı ilə əlaqədar nəql olunan çoxlu rəvayətlərdən istifadə etməklə o hökumətin ən ümdə proqramları aşağıdakılardan ibarət olacaqdır: Mədəni-maarif proqramları, ictimai və iqtisadi proqramlar, başqa sözlə desək, Qur`anın saf tə`limlərindən, din rəhbərlərinin gözəl üslublarından ayrılaraq mədəni-maarif cəhətdən tənəzzülə uğrayan bəşər cəmiyyətləri gərək böyük mədəni inqilab sayəsində Qur`an, Peyğəmbər və Əhli-beytinin .göstərişlərinə qaytarılsın

Həmçinin, hərtərəfli ictimai bir proqramın lüzumu buna görə zəruridir ki, cəmiyyətin köksünə endirilən cürbəcür yaralara mərhəm bağışlasın, cəmiyyətin həqiqi həyatına zəmanət verən, onun ilahi və insani hüquqlarının bərpa olunmasına şərait yaradan düzgün proqramlar, zalımcasına cəmiyyəti hərc-mərcliyə, fəsada, puçluğa çəkən və zəiflərin hüquqlarının aradan getməsinə .səbəb olan zalımcasına üslubların yerinə keçirilib və icra olunsun

.Yüksək mədəni-maarif zəminələrinin yaradılması

İctimai inkişaf üçün iqtisadi proqramlar da zəruridir ki, onun sayəsində yer üzərində mövcud olan bütün maddi imkanlar ədalətli şəkildə və münasib səviyyədə istifadəyə verilsin. Başqa sözlə desək, təbii ne`mətlərdən istifadə etməklə iqtisadi inkişaf və məişətin təmin olunması .bütün təbəqələr üçün müyəssər və bütün mühitlərdə mümkün olsun

İmam Zaman (ə)-ın hökumət proqramları ilə qısa şəkildə tanış olduqdan sonra bütün imamlardan nəql olunan rəvayətlərə əsasən onun təfsilatını araşdıracağıq. İmam Zəman (ə)-ın

.proqramlarının ən mühümünü bu bölmədə qeyd edirik